# Elmi əsaslarla qurulmuş ümumxalq təşkilatı

**İnkişafa hər zaman açıq olan Yeni Azərbaycan Partiyasında bu gün cəmiyyətimizin bütün təbəqələri iştirak edir. YAP-ın üzvü olub-olmamasından asılı olmayaraq hər kəsin bu siyasi təşkilatı ümumxalq partiyası kimi qəbul etməsi təbiidir. Bu fikir bir də ona görə rəğbətlə qarşılanır ki, bu xalq partiyasının bünövrəsini məhz böyük siyasi xadim Heydər Əliyev qoymuşdur.**

Ümummilli liderin özü bu barədə demişdi: “Yeni Azərbaycan Partiyasının fərqi ondan ibarətdir ki, bu partiya onu yaratmaq istəyən, siyasi fəaliyyətlə məşğul olmaq istəyən adamların istəkləri ilə, bir təşkilati mərkəz olmadan, hərəsinin öz tərəfindən hərəkət etməsi nəticəsində, ağır şəraitdə, böyük təqiblər şəraitində yaranmış bir partiyadır”. 1990-cı illərin əvvəllərinin çətin sınaq günlərində dövlət müstəqilliyinin qorunub saxlanması üçün qətiyyətli bir şəxsin ölkə rəhbərliyinə gətirilməsi zərurəti yaranmışdı. Bu mənada, YAP-ın yaranması tarixi zərurət kimi qəbul edilir.

O zaman yeni yaranmış partiyanın lideri, ulu öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıdıb Azərbaycan dövlətçiliyini xaos və böhran məngənəsindən çıxartdı, vətəndaş müharibəsinin qarşısını aldı. Xilaskar lider döyüş cəbhəsində məğlubiyyətlər seriyasına son qoyaraq, iqtisadi və hərbi cəhətdən qüvvətlənmək məqsədilə atəşkəs rejiminin tətbiqinə nail oldu. Beləliklə, Heydər Əliyevin rəhbərliyilə 1992-ci ilin noyabr ayında yaradılmış Yeni Azərbaycan Partiyası (YAP) hakimiyyətə ədalətli, sivil yolla gəlməyin tarixi nümunəsini ortaya qoydu.

Hakimiyyətə məhz bu yolla gəlməyin mümkünlüyünə tərəddüdlə yanaşanlar tezliklə gördülər ki, ümummilli lider Heydər Əliyev şəxsiyyətinin ətrafında yaradılmış YAP-ın səfərbəredici, qurucu fəaliyyəti nəticəsində ölkədə siyasi sabitlik möhkəmləndi, dirçəliş başlandı. YAP-ın yaranışı ilə Azərbaycanın ictimai-siyasi fikir, siyasi fəaliyyət və mübarizələr tarixinə yeni bir keyfiyyət gətirildi: ölkə idarəçiliyində hər şey milli maraqlara tabe edildi. Nəticədə, xalqın rifahı yaxşılaşdı, ordu quruculuğu yüksək səviyyədə davam etdirildi.

Dünya şöhrətli dövlət xadimi olan ulu öndərin öz xalqına olan sədaqəti və ölkənin gələcəyi ilə bağlı mütərəqqi baxışları xalqı milli ideya və lider ətrafında daha inamla birləşdirdi. Heydər Əliyevin bu qarşılıqlı etimad enerjisindən qidalanan siyasi fəaliyyəti uğurlar silsiləsinə yol açdı.

Ümummilli lider Azərbaycanın beynəlxalq aləmdə təqdimatını apardı, onun uğurlu daxili və xarici siyasəti nəticəsində ölkəmizin imzası imzalar arasında göründü. Ulu öndərin müstəsna səyləri nəticəsində bu gün Azərbaycan dünyanın ən mötəbər nüfuzlu beynəlxalq təşkilatlarında – BMT-də, ATƏT-də, AŞPA-da, İƏT-də, Qoşulmama Hərəkatında tamhüquqlu üzv kimi təmsil olunur, NATO-nun, Avropa Birliyinin proqramlarında fəal iştirak edir. İndi elə bir qlobal məsələ yoxdur ki, orada Azərbaycanın mövqeyi nəzərə alınmasın.

Ulu öndər Heydər Əliyev ideyalarına daim sadiq olan, bu zəngin irsə əsaslanmaqla fəaliyyət göstərən Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin sədrliyi ilə böyük inkişaf yolu qət edib. Bu siyasi təşkilat çoxmillətli ölkə əhalisinin maraqlarını ifadə edir. Onun vahid və avanqard siyasi qüvvəyə çevrildiyi isə danılmazdır.

2005-ci il martın 26-da YAP-ın III qurultayında ölkə başçısı İlham Əliyevin partiyanın Sədri seçilməsi təşkilatın həyatında böyük tarixi hadisə oldu. 2003-cü, 2008-ci, 2013-cü və 2018-ci illərdə keçirilən prezident seçkilərində cənab İlham Əliyevin YAP-ın lideri kimi qələbə qazanması partiyanın nüfuzunu daha da artırdı və onun sosial bazasını möhkəmləndirdi.

Prezident İlham Əliyevin apardığı siyasət ətrafında xalqımızın sıx birləşməsi, ölkəmizin davamlı inkişafı və beynəlxalq arenadakı böyük nüfuzu, ordu quruculuğu sahəsindəki uğurlarımız Vətən müharibəsində Azərbaycanın şanlı qələbəsini təmin etdi, Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımız azad olundu. Vətən müharibəsi xalqımızın həyatında böyük tarixi hadisə olmaqla yanaşı, bölgədə yeni geosiyasi reallıqlar yaratdı. YAP haqlı olaraq bu qələbəni tarixi ədalətin təntənəsi kimi qiymətləndirir və ölkəmizin ərazi bütövlüyünün bərpasını böyük qürur hissi ilə qeyd edir.

Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində müasir Azərbaycanda nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, ölkənin dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı tədbirlər reallaşır. Partiya hər zaman cəmiyyətdə yeniliyin və müasirliyin tərəfdarı, təşəbbüskarı kimi çıxış edir. Azərbaycan xalqının maraqlarına cavab verən və mütərəqqi xarakter daşıyan müasir dəyərlərdən bəhrələnmək YAP-ın fəaliyyətinin əsaslarından biridir. Ümummilli dəyərlərlə bəşəri dəyərlərin vəhdəti və əlaqələndirilməsi müasir şəraitdə mühüm yer tutur.

Partiyanın fəaliyyətinin təşkilində elmi prinsiplərin əsas götürülməsi və obyektiv yanaşmalara üstünlük verilməsi önəmli amillərdir. Partiyanın mövqeyinə görə, öyrənilən və ya öyrədilən biliklərin məzmunu elmin, texnikanın inkişafı ilə yeniləşərək, təlim prosesini müasirləşdirir. Elmilik fəaliyyət meyarlarından biri kimi partiyanın inkişafını və möhkəmlənməsini nəzərdə tutur. Buna görə YAP cəmiyyətin və dövlətin inkişafı ilə bağlı təşəbbüslər irəli sürərkən elmi yanaşmalara əsaslanır.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, YAP Sədri İlham Əliyevin xalqın dəstəyindən, hərbçilərin şücaətindən və lider qətiyyətindən güc alan “dəmir yumruğu” sayəsində 44 günlük Vətən müharibəsində tarixi qələbə qazanıldı. Noyabrın 8-də Şuşanın düşmən əsarətindən qurtarılması, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi, 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanat ilə Ermənistan kapitulyasiyanı qəbul etməsi, Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana döyüşsüz qaytarmağa məcbur olması, ölkə Prezidentinin sərəncamları ilə sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü, noyabrın 8-i Zəfər Günü kimi təsis edilməsi çağdaş tariximizin qızıl səhifələridir. Bu, eyni zamanda, Yeni Azərbaycan Partiyasının fəaliyyət salnaməsidir.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin söylədiyi kimi: “YAP, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, həm də Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır”.

Böyük uğurlara nail olmaqla cəmiyyətin hakim siyasi qüvvəsinə çevrilmiş Yeni Azərbaycan Partiyası bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq.

**Akif ƏLİZADƏ,**
**YAP Veteranlar Şurasının üzvü, akademik**